**DOI: https://doi.org/10.59849/2957-3882.2024.1.123**
**UOT: 94(479.24)**

# İBRAHİM ƏMİNİ HƏRƏVİNİN "FÜTUHATİ-ŞAHİ" ƏSƏRİ ERKƏN SƏFƏVİ DÖVRÜNÜN ƏSAS MƏNBƏLƏRİNDƏN BİRİ KİMİ

**Samid BAĞIROV***

***Açar sözlər:*** *Fütuhati-Şahi, Şah İsmayıl, Səfəvi dövləti, İbrahim Əmini Hərəvi, Xorasan, fəth, Herat, Şahənşahnamə, mənbə*

## XƏLASƏ

"Fütuhati-Şahi" ("Şahın zəfərləri") əsərini erkən Səfəvi dövrünün ən orijinal mənbəsi hesab etmək olar. Onun müəllifi İbrahim Əmini Hərəvi Heratda doğulub. İbrahim Əmini Heratda ikən Səfəvilərin Şeybani xanın özbək ordusuna qalib gəlməsinin, Xorasanın və ətraf bölgələrin qızılbaşların nəzarətinə keçməsinin birbaşa şahidi olub. O, hətta Herat şəhərində qızılbaşların fəthnamələrindən bir neçəsini insanlar qarşısında qiraət edib. Əmini Hərəvi 1910-cu ildən başlayaraq qızılbaş ordusunun əməliyyatlarının birbaşa şahidi olub. İştirak etmədiyi döyüşlərdə də onun mənbələri Qızılbaş sərkərdələri olub. Buna görə onun əsəri və əsərində verdiyi məlumatlar ən orijinal qaynaq hesab edilir. "Həbibüs-siyər", "Cahanquşayi-Xaqan" və sair mənbələr dəfələrlə məhz ona istinad ediblər. Əmini Hərəvi bildirir ki, Səfəvi sarayının ən yüksək instansiyalarından tarixin yazılması ilə bağlı ona göstəriş verilib. İbrahim Əmini Hərəvinin digər üstünlüyü də şair olması, dini elmlərə, ilahiyyata və dövrün sair rəvac tapmış elmlərinə vaqif olmasıdır. "Fütuhati-Şahi" əsərinin dili olduqca ibarəli, üslubu mübaliğəli və az məzmunludur. Hekayəyə Qurandan xeyli miqdarda iqtibaslar, hikmətli kəlamlar, ərəb və fars zərbməsəlləri daxil edilmişdir. Əsər Şah İsmayıl dövrünün siyasi, hərbi, iqtisadi, sosial və dini vəziyyətindən geniş söz açır. Digər bəhslərlə müqayisədə nisbətən hərbi və siyasi hadisələrə daha çox yer verilib. Burada Şah döyüşlərin sərkərdəsi, Səfəvi təriqətinin mürşidi, İmamiyyə məzhəbini tərvic edən şəxs, ictimai ədaləti bərpa etməyə çalışan, insanların sosial rifahına köklənən, itaət edən rəqiblərə dəyər verən, xəyanətlə barışa bilməyən və səxavətli davranan şah kimi vəsf edilib.

## Giriş

Erkən Səfəvi dövrünün ən mühüm qaynaqlarından biri olan Sədrəddin İbrahim Əmini Hərəvinin "Fütuhati-Şahi" ("Şahın qələbələri") əsəri bizə Səfəvi dövlətinin yaranması, fəaliyyəti və onun banisi Şah İsmayılla (1487-1524) bağlı qiymətli məlumatlar verir. Bu əsərlə yanaşı Qiyasəddin Xandəmirin "Həbib-üs-siyər fi əxbar-i əfrad əl-bəşər" əsəri və anonim müəllifin "Tarixi Şah İsmayıl Səfəvi" ("Cahanquşayi-Xaqan") əsəri ilkin və orijinal mənbə hesab edilirlər. Onlardan sonra Həsən bəy Rumlunun "Əhsənüt-təvarix", I Şah Təhmasibin özünün ərsəyə gətirdiyi avtobioqrafiyası olan "Təzkirəti-Şah Təhmasib", Əbdi bəy Şirazinin "Təkmilətül-əxbar", Xurşah ibn Qubad Hüseynin "Tarixe-elçiye-Nizamşah", Budaq Münşi Qəzvininin "Cəvahirül-əxbar", Qazi Əhməd Quminin "Xülasətüt-təvarix", İskəndər bəy Münşinin "Tarixe-aləmarayi-Abbasi", Məhəmməd Qasım Hüseyni Günabadinin Şah İsmayılın həyatı ilə bağlı nəzm üslubunda yazdığı tarixi əsərləri, Avropa mənbələrindən Venesiyanın I Şah Təhmasibin sarayına təyin edilmiş elçisi Vinçentso Alessandrinin

* *AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.*
*E-mail: sami80@mail.ru*

hesabatını ehtiva edən kitabı, Ciovanni Tomasso Minadoinin "Türklərlə iranlıların müharibələri tarixi" və Səfəvilərin İspaniyada səfiri Oruc bəy Sultanəli bəy oğlu Bayatın "Persiyalı Don Xuan" adlı Valyadolid şəhərində çap edilmiş kitabda bəhs olunan dövrlə bağlı müəyyən məlumatlar öz əksini tapmışdır. Tarixi qaynaqlar içərisində Şah İsmayıldan öncə Səfəvi xanədanının tarixinə dair məlumatların əldə edilməsi üçün Təvəkkül ibn İsmayıl ibn Bəzzaz Ərdəbilinin yazdığı "Səfvətüs-Səfa" əsəri də əhəmiyyətli yer tutur.

Nəzərə alsaq ki, "Fütuhati-Şahi" əsəri Şah İsmayılın göstərişi ilə yazılıb erkən Səfəvi dövrünün araşdırılması məsələsində böyük əhəmiyyət kəsb etməkdədir. Başda "Fütuhati-Şahi" əsəri olmaqla adıçəkilən mənbələrin bir qismi Səfəvi sarayının katibləri tərəfindən yazılıb. Təbii ki, onların verdiyi məlumatlardan tam obyektivlik gözləmək olmaz. Eyni zamanda bəzi əsərlər də Səfəvi dövlətinə xəyanət etmiş və ya məzhəb və din baxımından fərqli fikirdə olan insanlar tərəfindən yazılıb ki, bu mənbələrdən də obyektivlik gözləmək çətindir. Məsələn İtaliyalı tarixçi Ciovanni Tomasso Minadoi "Türklərlə iranlıların müharibələri tarixi" əsərində əsasən Səfəvilərə xəyanət edərək Osmanlıların tərəfinə keçmiş sabiq qızılbaş səfiri Maqsudxan Zülqədərin verdiyi məlumatlara istinad edib (Əfəndiyev, 2007, s.90). Habelə öncə adı keçən "Persiyalı Don Xuan" adlı əsərin müəllifi Oruc bəy Bayat Şah Abbasın Avropaya ezam etdiyi diplomatik nümayəndə heyətinin katibi idi və bir müddət sonra xristianlığı qəbul etmişdi. Əməlinə görə Səvəfi dövləti ərazilərinə qayıtmayan Don Xuan ləqəbli Oruc bəy Bayat naməlum şəkildə öldürülənədək İspaniyada qaldı (Bayat, 2016, s.3-21).

**"Fütuhati-Şahi" əsərinin müəllifi İbrahim Əmini Hərəvi kimdir?**

Mirək Cəlaləddin Qasım oğlu Sədrəddin İbrahim Əmini Hərəvi hicri-qəməri təqvimi ilə 882-ci ildə (miladi ilə 1477-ci il) Xorasanın mərkəzi olan Herat şəhərində anadan olub. Onun ana babası Mövlana Cəlaləddin Əbdürrəhman Teymuri şahzadəsi Mirzə Baysanqurun (1399-1433) və oğlu Əlaüddövlənin sarayında dini işlər üzrə sədarət və ya sədr vəzifəsini daşıyıb. "Fütuhati-Şahi" əsərini nəşrə hazırlayan şəxs isə Dr. Məhəmməd-Rza Nəsiridir. Məhəmməd-Rza Nəsiri 1946-cı ildə İranın Damğan şəhərində anadan olub. Doktorluq mövzusunu İstanbul Universitetində müdafiə edib. Peyam-Nur Universitetinin professoru və universitetin Elmi Şurasının üzvüdür. Tarix mövzusunda, xüsusilə də Səfəvi dövrünə dair bir sıra kitabları və araşdırmaları vardır. Nəsiri əsərə yazdığı girişdə Hərəvi barəsində məlumat verərək bildirir ki, müəllif gənclik dövründə şahzadə Əbu-Mənsur Sultan Müzəffər Hüseyn Mirzənin (1507) yanında olub və o, hökmdarın ömrünün sonlarında sədr vəzifəsinə qədər yüksələ bilib (Əmini Hərəvi, 2004, s.15).

Özbəklərin Heratı tutmasından sonra və Şeybani Xanın (1451-1510) Teymurilər dövlətinə (1370-1507) son qoyması nəticəsində İbrahim Əmini Hərəvi təqibə məruz qaldı. O, bu müddət ərzində Heratda yeni hakimiyyətin sədarət vəzifəsini yerinə yetirən Mövlana Əbdürrəhim tərəfindən cəzalandırıldı. Əmlakı müsadirə edildi. Hərəvi bir müddət güşənişin olmağa məcbur qaldı. 1510-cu ildə Şah İsmayılın Məhəmməd Şeybanı xanı məğlub etməsindən sonra Xorasan Səfəvilərin nəzarətinə keçdi. "Rövzətüs-səfa"nın müəllifinin məlumatına görə bundan sonra Əmini Hərəvi Herat sarayına dəvət edilirək, şah və əmirlər tərəfindən təltif edildi. Müsadirə olunan əraziləri onun özünə qaytarıldı. Əmini Hərəvinin özünün yazdıqlarından da belə məlum olur ki, o həmin dövrdə səfəvilərin gəlişindən sonra əhəmiyyətli dərəcədə siyasi və ictimai nüfuza malik olmuşdur (Əmini Hərəvi, 2004, s.15).

Əmini Hərəvi bununla bağlı yazır: "Bu sətirləri qələmə alan (bəndə) öz viranəsinin bir guşəsində bir dəstə elm tələbəsi ilə birgə oturan zaman o məclisdən bir nəfər gəlib bildirdi ki, səni bağda təşkil edilən yığıncağa çağırırlar. Bu zəif (bəndə) ora gedəndə qəribə və qeyri-adi bir məclisin təşkil edildiyini gördü. Şəhərin bütün böyük adamları oraya gəlmiş, hər biri keçmişdə etdikləri və düşüncələri ilə bağlı hesab-kitaba çəkilirdilər. Bəziləri nigaran və narahat idilər…" (Əmini Hərəvi, 2004, s.350).

Əmini Hərəvi özbəklərin məğlubiyyətindən sonra Heratın cümə məscidində Səvəfilərin məlumat xarakterli xəbərlərini oxuyan və onları camaata çatdıran ilk və əsas şəxslərdən biri idi. Qiyasəddin

Xandəmir "Həbibüs-siyər" əsərində bu barədə yazır ki, Xacə Batkəci Herata gəlib, inayət və lütf mənbəyi olan şahın elanını gətirdi və Əmir Sədrəddin İbrahim Əmini onu cümə günü məsciddə minbərə çıxıb oxudu (Xandəmir, 1954, c.4, s.515). Əhli-beytə bağlılıq və tərəfdaşlığı, habelə Əhli-beytin düşmənlərinə düşmən olmağı ehtiva edən elanı və digər yeni fərmanları oxuyandan sonra şahın hüzuruna gedən Əmini Hərəvinin təltif edildiyini bildirir (Hərəvi, 2004, s.351).

Əmini Hərəvi Şah İsmayılın sarayında vəzifə tutduqdan sonra ona qayğı və diqqət göstərilir. O, öz əsərində Sultan Hüseyn Mirzənin sarayında elmə, ədəbiyyata və irfana olan xidmətindən yazır, lakin daha sonra yaşadığı yerin təhlükəli olduğundan Şah İsmayılın yanına getdiyini, hicri-qəməri təqvimi ilə 927-ci ildə (1520) onun dövlətinin tarixini qələmə almaqla bağlı əmr aldığını yazır. Əmini ilk mərhələdə təvazökarlıq nümayiş etdirərək bu işin öhdəsindən gələ bilməyəcəyini yazsa da, daha sonra ona edilən etimada görə bu işi qəbul etdiyini deyir və əsərini "Şahın qələbələri" adlandırır.

O yazır: "Bu mübarək yazıya, o asitana istiqamətlənməsi ümidi ilə, incəliklərinin digər yazılardan daha dolğun olması, sağlam zövqlərin, doğru düşünən beyinlərin və bacarıqlı zehinlərin onu mütaliə etməkdə daha da rəğbətli və həvəsli olması ümidi ilə başlayıram" [4, s.26].

Mirxand (Bəlxi, 1994, c.11, s.5938) və onun ardınca Xandəmir Əminiyə belə bir tarixin yazılması ilə bağlı əmr verildiyini yazıblar: "İndi o (İbrahim Əmini) tam ciddiyyətlə və sözə sığmayan təlaşla o işlə məşğuldur. O, kitabın yazılmasında bütün fəsahət və bəlağət üslublarından istifadə edir, gözəl ibarələrdən və incə məsəlləri gətirməkdən dəqiqə belə əsirgəməyir" (Xandəmir, 1954, c.3, s.327).

Əmini Şah İsmayılın vəfatından sonra Heratda yaşadı. Xorasan üzrə vəzir olan Xacə Əmir bəy Təbrizinin məsləhəti ilə Şah Təhmasib (1514-1576) ona şahzadə Bəhram Mirzənin (1517-1549) təlim-tərbiyəsini tapşırdı. Həmin illərdə özbəklərin əmiri Bayram Oğlanın Herata yürüşü xəbəri gəldi. "Zamanın böyük şəxsiyyətlərindən, fəsahətli və bəlağətli şəxslərindən və dərrakəli insanlarından olan Əmini" Heratın hakimi Xəlifə Şamlu Sultanı Özbək xanına qarşı mübarizəyə təşviq etdi (Səfəvi, 1935, s.47). Buna görə, Xəlifə Sultan Şamlu Əmininin, Şah Məhəmməd Came-Bafın və digərlərinin təşviqi ilə hicri-qəməri təqvimi ilə 941-ci ilin (1534) zilqədə ayının on doqquzunda Heratdan çıxdı. Şəhərin on fərsəxliyində İsfizar adlı kəndin ərazisində Bayram Oğlanın ordusu ilə qarşı-qarşıya gəldi. Bu döyüşdə Xəlifə Sultan, İbrahim Əmini və orduda olan çoxlu türk və taciklər (farsmənşəlilər) həlak oldular. Qazi Əhməd Qumiyə (1549-1606) görə, Əmininin cənazəsi Heratın Qozərgah adlı məhəlləsində dəfn edildi. Onun sözlərinə görə bu döyüşdə doqquz yüz nəfər həlak oldu ki, onlardan biri də özünə zülm edib, düşmənlə qarşı-qarşıya çıxıb döyüşən Əmini idi (Qumi, 2004, c.1, s.245).

"Fütuhati-Şahi" əsərini nəşrə hazırlayan Dr. Məhəmməd-Rza Nəsiri kitaba yazdığı ön sözdə belə deyir: "Əgər Əmininin "Fütuhati-Şahi" əsərini yazmağa başlamasını 927 hicri ilində olduğunu qəbul etsək, habelə hicri 882-ci ilinin onun doğum tarixi kimi təsdiq etsək belə nəticə əldə edərik ki, Əminin ölümü 59 yaşında baş verib" (Hərəvi Əmini, 2004, s.18).

Əmini Hərəvi yalnız Səfəvi saray tarixçisi deyil, həm də fəzilət əhli, ədəbiyyatçı və şair idi, habelə müasir elmlərə də vaqif idi. Onun "Fütuhati-Şahi" əsərində yazdığı şerlərin çoxu özünə məxsusdur. Ondan bir sıra pərakəndə şerlər də miras qalıb. Məsələn: Xorasanda baş verən aramsız döyüşlər, bölgənin səfəvilərdən özbəklərə və əksinə olaraq əldən-ələ keçməsi, nəticədə bölgənin inkişafdan geri qalması Əmininin yaddaşına həkk olub və belə qələmə alınıb:

امینی مریز آب رو در خراسان کزین خاک جز خار حرمان نروید
تمام جهان ابر احسان ببارد گیاه کرم از خراسان نروید

Əmini Xorasan torpağının üzərinə su tökmə
Bu torpaqdan yararsız tikandan başqa bir şey çıxmaz.
Bütün dünyaya ehsan buludları yağsa belə,
Xorasandan kərəm bitkisi çıxan deyil.

Əmini Hərəvi müasiri olan və Teymurilər sarayında bir yerdə fəaliyyət göstərdiyi, (Nizami Gəncəvinin davamçılarından olan) şair Əlişir Nəvainin (1441-1501) məhzərindən elmi və mənəvi bəhrə almışdı. Onun Əlişir Nəvaiyə mərsiyə bəstələməsi də diqqət çəkir (Bəlxi, 1994, c.11, s.5937).

Şah İsmayılın oğlu Sam Mirzə (1518-1567) yeddi yüz şairin yaradıcılığından bəhs edən “Töhfeyi-Sami” adlı təzkirəsində bildirir ki, “Dibaçeyi-Murəqqə”, “Rubaiyyeyi-Divani-Həzrət Əli” və “Cəvabiyyeyi Silsilətüz-zəhəbi Mövlana Cami” Əmininin əsərlərindəndir (Səfəvi, 1935, s.26). Habelə Əmininin “Muarezeyi Mehr və Məktub” adlı əsərinin olduğu da deyilir. Məhəmməd-Rza Nəsiri “Fütuhati-Şahi”yə yazdığı girişdə bu barədə geniş məlumat verir.

**“Fütuhati Şahi”nin nüsxələri**

“Fütuhati-Şahi” əsərinin nüsxələrindən ikisi digərləri ilə müqayisədə tam olduqları və ya çatışmazlıqlarının az olduğuna görə tədqiqatçıların diqqətini daha çox özünə cəlb edib. Onlardan biri Tacikistan Respublikası Elmlər Akademiyasının Şərq Əlyazmaları fondunda saxlanılan, digəri isə İranın Milli Muzeyində saxlanılan nüsxələrdir. “Fütuhati-Şahi” əsərini tərtib edən, ona lazımi əlavələr və düzəlişlər edən, habelə onu nəşrə hazırlayan Məhəmməd-Rza Nəsiri bildirir ki, Ərdəbildəki Şeyx Səfi kitabxanasından İran Milli Muzeyinə gətirilən bu nüsxə mövcud nüsxələrin ən kamilidir (Əmini Hərəvi, 2004, s.22).

Azərbaycanlı Səfəvişünas mərhum Oqtay Əfəndiyev yazır: “Fütuhati-Şahi” əsərinin tam nüsxəsi Tacikistan Respublikası Elmlər Akademiyasının Şərq Əlyazmaları fondunda saxlanılır. Tacik şərqşünası A.M.Mirzoyev tərəfindən (“Şahənşahnamə” adlı tarixi əsərin müəllifini müəyyən etmək xidməti də ona məxsusdur) aşkar edilmiş və siyahıya alınmışdır…” (Əfəndiyev, 2007, s.7).

Lakin Məhəmməd-Rza Nəsiri Tacikistan Elmlər Akademiyasının Şərq Əlyazmaları fondunda saxlanılan nüsxənin nöqsanlarından söz açaraq İranın Milli Muzeyində saxlanılan nüsxənin tam olduğu üzərində dayanır. O, yazır: “Əl-Zəriə əsərində Fütuhat kitabı “Fütuhati-Şahi Məsnəvi” olaraq yad edilib. Digər bir nüsxə də Tacikistanda saxlanılır ki, tərtibatçı (Nəsiri) çoxsaylı səylərinə baxmayaraq bu nüsxənin mikrofilmini ələ edə bilməyib. Amma “Tacikistan Əlyazmaları siyahısı”ndan, habelə “Fehrestvareye-Münzəvi”dən əldə edilən budur ki, bu nüsxə (Tacikistan) də tam deyil, əvvəlində və sonunda düşmələr var” (Əmini Hərəvi, 2004, s.20).

Məhəmməd-Rza Nəsirinin məlumatına görə “Fütuhati-Şahi”nin Tacikistan nüsxəsinin birinci dəftərindən bir neçə vərəq yoxdur, ikinci dəftərindən isə müqəddimə və mətnin sonu yoxdur. O, bu haqda Tacikistan Əlyazmalar İnstitutunun aidiyyatı materiallarına istinadən məlumat verir (Əmini Hərəvi, 2004, s.20).

O, daha sonra Cəfər Sultanul-Qurrayi kitabxanasında saxlanılan nüsxənin nöqsanlarından söz açaraq bildirir ki, həm birinci, həm də ikinci dəftərdə Şah İsmayılın əcdadı, əsli nəsəbi hissəsində, xüsusilə də birinci dəftərin əvvəli və axırında düşmələr mövcuddur. Həmçinin Yəzddə Vəziri Kitabxanasında saxlanılan nüsxədən söz açan Nəsiri qeyd edir ki, naqis nüsxədir və Səfəvi xanədanı hissəsinə qədəri ehtiva edir (Əmini Hərəvi, 2004, s.22).

Məhəmməd-Rza Nəsiri sonda ən mötəbər nüsxə kimi vaxtilə Ərdəbildən gətirilmiş və hal-hazırda İranın Milli Muzeyində saxlanılan nüsxənin üzərində dayanır. O yazır: “O tam bir nüsxədir ki, xoşagələn nəstəliq xətti ilə yazılmış və (hicri-qəməri təqvimi ilə) onuncu əsrə aiddir. Ölçüsü 28/5 ×17/4 və (xammalı Çindən gətirilmiş) Xanbaliğ kağızındandır. İlk iki səhifəsi qızılı rənglə işlənmiş, mətni və haşiyəsi isə cədvəllidir. Ərəb dilində olan ünvan və ibarələri laciverd, narıncı və qırmızıya çalan parlaq şəkildə yazılmışdır. Cildi isə qara dəridir… Bu nüsxə Şeyx Səfi dərgahından İranın Tarixi Milli Muzeyinə gətirilmiş, 722 saylı əlamətlə muzeyin əsas dəftərində qeyd edilmişdir…” (Əmini Hərəvi, 2004, s. 22).

O kitabın bu nüsxəsinin möhtəvası haqda aşağıdakıları əlavə edir: “Kitab iki dəftərdən ibarətdir. Birinci dəftər beş “Fəth”dən ibarətdir:

**Birinci fəth**: Yaradılışın ilk çağı, Adəmin xəlq edilməsi, Sonuncu Peyğəmbərin (Allahın salamı olsun Ona və ailəsinə) əsli-nəsəbi,

**İkinci fəth:** Milad və doğum haqda qısa xəbərlər,

**Üçüncü fəth:** Müqəddəs zatlı imamların hadisələrindən biraz məlumat,

**Dördüncü fəth:** Ədalətli şahın əcdadı və digər ata-babaları haqda,

**Beşinci fəth:** Ədalət və din Xosrovunun kiçik yaşlarında əhvalının şərhi haqda - Allah Taala qiyamət gününə qədər onun kölgəsini ölkələrin xalqlarının üzərində daim saxlasın.

**İkinci dəftər** isə giriş, Şah İsmayılın zühuru, bu dövrün ta 920 hicri-qəməriyə (1514-cü ilə) qədər olan hadisələrini ehtiva edir. Elə həmin ilin hadisələrindən etibarən nüsxə natamam şəkildə başa çatıb və Şah İsmayılın dövrünün (geridə qalan 10 illin) hadisələrindən söz açılmayıb. Görünür, Əmini Şah İsmayılın Çaldıran döyüşündə məğlubiyyətini yazmaq istəməyib" (Əmini Hərəvi, 2004, s. 23).

Məhəmməd-Rza Nəsiri bu nüsxənin Ərdəbil Barigahına gedib çıxması barədə yazır ki, kitab hicri-qəməri təqvimi ilə 1017-ci ildə (m.1608) Şah Abbas (1571-1629) tərəfindən Şeyx Səfi Barigahına vəqf edilib. Kitabın ilk səhifəsində belə yazılıb:

"Əli ibn Əbu-Talibin (ə) astanasının iti (vəfalısı) olan Abbas Səfəvi bu kitabı Şah Səfinin nurani barigahına vəqf edib. O şərtlə ki, onu oxumaq istəyən istənilən kəs kitabı barigahın astanasından kənara çıxarmasın. Onu barigahın astanasından kənara çıxaran İmam Hüseynin (ə) qanına şərikdir. "Fütuhati-Şahi 1017" (Əmini Hərəvi, 2004, s.23).

Aşağıda isə başqa bir xətlə belə yazılıb: "Onu Məhəmməd əl-Baqir Bigdeli Şamlu 1106-cı ildə yazıb (köçürüb)".

Nüsxənin birinci və axırıncı, habelə digər səhifələrində üzərində "Vəqfi Astaneyi Mütəbərrikeyi Səfiyyeyi Səfəvi" (Pak və mübarək Səfəvi astanına vəqf edilib) yazılmış möhürlər var. Axırıncı səhifədə Şah Abbasın möhürü də var.

Məhəmməd-Rza Nəsiri İran Milli Muzeyində olan nüsxəni əsas götürdüyü üçün düzəlişlər zamanı həmin nüsxəni "م" (M) əlaməti ilə təyin edir. Digər nüsxələrdən istifadə zamanı da onların baş hərflərindən əlamət olaraq istifadə edir. Açıqlamalar ehtiyac olanda "Həbibüs-siyər", "Rövzətüs-səfa", "Cəvahirül-əxbar", "Təkmilətül-əxbar", "Cahanara", "Əhsənüt-təvarix" və "Tarixi-Bənakəti" kimi mənbələrdən bəhrələnib. Quran ayələri və hədisləri, habelə ərəb dilində olan atalar sözləri və məsəllərin məxəzlərini və onların mənalarını da gətirib. O, nəşrə hazırladığı kitabın sonunda Quran ayələrinin, Peyğəmbər və İmam hədislərinin, məsəllərin, ərəb və fars dilində olan şeirlərin, şəxslərin, məkanların, millətlərin, din və məzhəblərin, habelə o zamankı vəzifə və postların siyahısını verib.

### "Fütuhati-Şahi" əsərinin elmi dəyəri

İlk növbədə qeyd etmək lazımdır ki, Səfəvi dövrünün ilkin qaynaqlarından olan "Həbibüs-siyər", "Xülasətüt-təvarix", Tarixe-aləmarayi-Abbasi" və digər Səfəvi dövrü qaynaqlarının müəlifləri "Fütuhati-Şahi"yə istinad etmiş və onu öz mənbələrindən biri hesab etmişlər. Bu barədə məlumat verən azərbaycanlı səfəvişünas alim Oqtay Əfəndiyev bildirir ki, (yuxarıda adı keçən qaynaqların müəllifləri) Xandəmir, Qazi Əhməd Qumi, İskəndər bəy Münşi və başqaları "Fütuhati-Şahi"dən ilkin mənbə olaraq yararlanıblar (Əfəndiyev, 2007, s.7). "Fütuhati-Şahi"nin müəllifi kitabı yazarkən Həzrət Əliyə mənsub olan divandan, Təbərinin tarixindən, "Kəşful-ğümmə", "Kəşşaf", "Səhihi-Müslim", Səhihi-Buxari", "Rövzətüt-Talib", "Rövzətül-əxbar", "Dərcüd-Dürər", "Şərhi Müxtəsər İbn-Hacib", "Nəfayisul-Fünun", "Tarixe Qozide", "Munisul-Həzin", "Nəvadirul-Hikmə", "Silsilətüz-Zəhəb", "Şəvahidun-Nübüvvə", "Rövzətüş-Şühəda", "Səfvətüs-səfa", "Zəfərnamə" və "Həbibüs-siyər" kimi tarixi, hədis, təfsir, təzkirə və məqtəl əsərlərindən yararlanıb. Amma onun əsas mənbəyi öz müşahidələridir. Bəzən Əmini Hərəvi "Qazi Mirhüseyn Yəzdi dedi", "Hafiz İsmayıl Suheybdən rəvayət edib", "Kazruni belə deyib", "Əbu-Məşər Bəlxinin fikrinə görə", "Məhəmməd İbn İshaqdan rəvayət ediblər" və "İbn-Abbas deyib" kimi ifadələri işlətməklə bu kimi mənbələrə işarə edib (Əmini Hərəvi, 2004, s.26). Deyildiyi kimi Əmini Hərəvinin əsas mənbəyi və qaynağı onun öz müşahidələri

idi. O, Şah İsmayılın ordusunun yürüşlərində iştirak etmiş və bu yolla fəthlər barədə etibarlı məlumatlar əldə etmişdi. Bəzən də o, məlumatları birbaşa müharibədə iştirak etmiş Qızılbaş əmirlərindən aldığını bildirir. Eləcə də Şeyx Heydərin (1459-1488) Fərrux Yasarla (1441-1500) döyüşdə həlak olması məsələsinə belə toxunur:

"Məxfi qalmasın ki, bu xəbərlərin həqiqətini xoşbəxt naiblərin, məsələn döyüşlərdə iştirak etmiş Hüseyn bəy Lələ (1452-1514) və Fərrux Ağa kimi qazilərin buyurduqlarından eşitmişəm" (Əmini Hərəvi, 2004, s. 58).

Səfəvi dövrünün digər ilk qaynaqlarının yazarlarının üslubu kimi Əmini Hərəvi də "Fütuhati-Şahi"də hadisələrin özünü və məzmununu çatdırmaqdan çox, o dövrün ədəbiyyatının bəyəndiyi qafiyəli, nəzmli, mədhli, uzun-uzadı terminləri və cümlə quruluşlarını işlətməkdən çəkinməyib. "Fütuhati-Şahi"ni incələyən mərhum Oqtay Əfəndiyev onun yazı üslubu barədə yazır:

"Əmininin dili olduqca ibarəli, üslubu mübaliğəli və az məzmunludur. Hekayəyə Qurandan xeyli miqdarda iqtibaslar, hədislər, həmçinin şeir parçaları daxil edilmişdir. (Tacikistanlı tarixçi) A.M.Mirzoyevin göstərdiyi kimi əgər xüsusi variantlar nəzərə alınmasa "Fütuhati-Şahi"nin və "Şahənşahnamə"nin ikinci cildinin mətnləri oxşardır. Mətnlərin eyniliyi buna şəhadət verir ki, "Şahənşahnamə" müstəqil əsər deyildir və "Fütuhati-Şahi"nin ikinci cildinin nüsxəsidir" (Əfəndiyev, 2007, s.10).

Məhəmməd-Rza Nəsirinin sözlərinə görə kitabdakı şeirlər, qol-budaqlı ibarəli kəlmə və kəlamlar onu zinətləndirsə də, bəzi hallarda oxucu mətləbi əldə etməkdə çətinliklərlə qarşılaşır, bəzən mütaliə yorucu olur, bəzən də tarixi hadisələr ağır cümlə quruluşlarına qurban verilir. Lakin buna baxmayaraq, əsər ehtiva etdiyi məlumatlara görə, Şah İsmayılın dövrünün əsas mənbələrindən biridir (Əmini Hərəvi, 2004, s.27).

"Fütuhati-Şahi" əsəri Şah İsmayıl dövrünün siyasi, hərbi, iqtisadi, sosial və dini vəziyyətindən geniş söz açır. Digərləri ilə müqayisədə nisbətən hərbi və siyasi hadisələrə daha çox yer verilib. Şahın döyüşlərdə sərkərdə kimi aparıcı rolu, Səfəvi təriqətinin mürşidi kimi, İmamiyyə məzhəbini tərvic edən şəxs kimi, ictimai ədaləti bərpa etməyə çalışan, insanların sosial rifahına köklənən, itaət edən rəqiblərə dəyər verən, İmamların və övliyaların məzarlarının yenidən qurmasına əhəmiyyət verən, səxavətli davranan, xəyanətlə barışa bilməyən şah olaraq vəsf edilib.

**Nəticə**

Səfəvi dövrünün ilkin qaynaqlarını araşdırarkən bu nəticəyə gəlmək olur ki, "Fütuhati-Şahi" əsəri Şah İsmayılın həyatından bəhs edən ən orijinal üç mənbədən biridir. Çünki əsərin müəllifi İbrahim Əmini Hərəvi azı 11 il Şah İsmayılla eyni dövrdə yaşayıb, bəzi yürüşlərdə onunla birgə olub və baş verən prosesləri birbaşa yaxından müşahidə edə bilib. Əsərdə ədəbi üsluba, şeirə və dini kəlamlara çox yer verilməsinə baxmayaraq, verdiyi orijinal məlumatlar baxımından mühüm əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

Bayat Hüseynəli bəy. Daneşnameye Cahane İslam, 2016.

Bəlxi Mirxand. Rövzətüs-Səfa, Məharət, Tehran, 1994.

Əfəndiyev Oqtay. Azərbaycan Səfəvilər dövləti, Bakı, Şərq-Qərb, 2007.

Hərəvi Əmini İbrahim. Fütuhati-Şahi *(*Tarixi Səfəvi əz ağaz ta sale 920 hicri*)*, "Əncumәne Asar və məfaxere Fərhəngi", Tehran, 2004.

https://rch.ac.ir/article/Details?id=12331

Qumi Qazı Əhməd. Xülasətüt-təvarix, "Daneşqahe Tehran", Tehran, 2004.

Səfəvi Sam Mirzə, Təzkireyi Töhfeyi-Sami, Ərməğan, Tehran, 1935.

Xandəmir Qiyasəddin. Həbib əs-siyər fi əxbar əfrad əl-bəşər, Xəyyam, Tehran, 1954.

## РЕЗЮМЕ

***Самид БАГИРОВ***

### *«Книга Футухати-Шахи» Ибрагима Амини Харави как один из главных источников раннего сефевидского периода*

***Ключевые слова**: Футухати-Шахи, Шах Исмаил, Сефевидское государство, Ибрагим Амини Харави, Хорасан, Херат, завоевание, Шахеншахнаме, источник*

«Футухати-Шахи» («Завоевания шаха») можно считать наиболее достоверным источником раннего Сефевидского периода. Ее автор Ибрагим Амини Харави родился в Харате. Находясь в Герате, Ибрагим Амини стал очевидцем победы Сефевидов над узбекским войском Шейбани-хана, и перехода Хорасана и прилегающих регионов под контроль кызылбашей. Он даже продекламировал некоторые официальные заявления о победе кызылбашей перед жителями города Герат. Амини Харави был непосредственным свидетелем действий армии Кызылбашей начиная с 1910 года. Источниками о боях, в которых он не участвовал, ему служили кызылбашские полководцы. Поэтому его работы и информация, представленная в его работе, считаются наиболее оригинальными источниками. На него неоднократно ссылались «Хабиб-сияр», «Джахангюшайи-каган» и другие источники. Амини Харави утверждает, что ему было поручено написать историю от высшего руководства дворца Сефевидов. Еще одним достоинством Ибрагима Амини Харави является то, что он был поэтом, знатоком религиозных наук, теологии и других популярных наук того времени. Язык произведения «Футухати-Шахи» весьма идиоматичен, стиль утрирован и обладает ёмкостью. В повествовании много цитат из Корана, мудрых изречений, арабских и персидских пословиц. В работе описывается политическая, военная, экономическая, социальная и религиозная обстановка эпохи шаха Исмаила. По сравнению с другими, относительно больше места было отведено военно-политическим событиям. Здесь шах описывался как полководец, мюршид Сефевидского ордена, продвигавший имамитскую секту, как государь, стремившийся восстановить общественную справедливость, ориентированный на социальное благополучие народа, ценивший послушных противников, не желавший смириться с предательством, отличавшийся щедрым нравом.

## ABSTRACT

***Samid BAGHIROV***

### *Ibrahim Amini Haravi's "Futuhati-Shahi" as One of the Main Sources of the Early Safavi Period*

***Keywords**: Futuhati-Shahi, Shah Ismail, Safavid state, Ibrahim Amini Haravi, Khorasan, conquest, Herat, Shahenshahname, source*

"Futuhati-Shahi" (Conquests of the Shah) can be considered the most reliable source of the early Safavid period. Its author, Ibrahim Amini Haravi, was born in Herat. While in Herat, Ibrahim Amini witnessed the Safavid victory over the Uzbek army of Sheibani Khan and the transition of Khorasan and adjacent regions under the control of the Gyzylbash. He even recited some official statements about the victory of the Gyzylbash in front of the residents of the city of Herat. Amini Haravi was a direct witness to the operations of the Gyzylbash army starting in 1910. The sources of the battles in which he did not participate were the Gyzylbash commanders. Therefore, his work and the information provided in it are considered the most original sources. "Habib-siyar," "Jahangushayi-

Khagan," and other sources have repeatedly referred to him. Amini Haravi states that he was instructed to write history by the highest authorities of the Safavid palace. Another advantage of Ibrahim Amini Harawi is that he was a poet and an expert in religious sciences, theology, and other popular sciences of the time. The language of the work "Futuhati-Shahi" is very idiomatic; the style is exaggerated and laconical. The story contains many quotations from the Koran, wise sayings, and Arabic and Persian proverbs. The work describes the political, military, economic, social, and religious situation of Shah Ismail's era. Compared to other matters, relatively more space was given to military and political events. Here, the Shah was described as a commander, a murshid of the Safavid Order, who promoted the Imami sect, as a sovereign who sought to restore social justice, focused on the social well-being of the people, valued obedient opponents, did not want to accept betrayal, and was distinguished by a generous disposition.